# "QAXDAN QARABAĞA GEDƏN YOL"

## *Xavər Əfəndiyevanın yenicə çapdan çıxmış "Qaxdan Qarabağa gedən yol" adlı kitabına ön söz*

***Belə bir deyim var: "Müharibə ölüm kabusudur". Müharibə anaların qorxulu röyasıdır. Müharibə milyonların fəlakəti, acısıdır. Bəşər tarixi yarandığı gündən hər səhifəsində bu ölüm kabusunun qanlı izləri yaşanıb və yaşanmaqdadır.***

İllər ötür, nəsillər dəyişir, xalqın həyatında baş verən hadisələr tarixə çevrilir. Bəziləri unudulub gedir, bəziləri isə qan yaddaşımıza əbədi həkk olunur. Xalqımızın qan yaddaşına yazılan ən möhtəşəm hadisələrdən biri də məhz 44 günlük Vətən müharibəsi və Tarixi Qələbəmizdir. Hansı ki, bu Qələbə igid oğullarımızın savaş meydanında göstərdiyi hünərlə, onların canları bahasına qazanılıb. Bu gün hər biri bir əfsanəyə dönüb, Vətən göylərində ruhları gəzən Şəhid oğullarımız yurd, torpaq sevgisi ilə şanlı Zəfər tariximizi yazıb.

...Türk dünyasının şərəf, ləyaqət və qəhrəmanlıq timsalı olan Çanaqqalla döyüşünün eyni idi bizim Vətən müharibəmiz. Qazandığımız Qələbə bir daha dünyaya göstərdi ki, türk soyundan olan bir xalq heç vaxt məğlub xalq kimi yaşaya bilməz.

Çanaqqala korpusu ingilis komandanı general Uilyam Birdvard demişdir: "Yer üzündə türk əsgəri qədər Vətəni üçün gözünü qırpmadan ölən, döyüş əsnasında misli görünməmiş cəsarətlə fırtınalar əsdirən, yaralı düşmənini arxasına alaraq onu ölümdən qurtaran başqa bir əsgər görünməmişdir".

Bu zəfərin bir sirri də əsgərindən tutmuş komandirinə qədər hər kəsin, hətta bütün millətin Çanaqqalada bir yumruğa dönməsi, birlik-bərabərlik halında bölünməzliyi qoruması idi.

İngilis ordu komandanı general Hamiltonun: "Bizi türklərin maddi gücü deyil, mənəvi gücü məğlub etdi. Çünki onların atacaq barıtı da qalmamışdı. Lakin biz göydən enən gücləri gözümüzlə gördük!..." sözləri və etirafı bu həqiqət haqqında tam təsəvvür formalaşdırır.

...1915-ci ilin payız ayında sərin və yağışlı bir gündə Söyüdün Akgünlü kəndindən ağbirçək, beli bükülmüş, solğun bənizli, yaşlı bir ana Biləcik dəmiryolu stansiyasından oğlunu cəbhəyə yola salırdı. Onu bağrına basaraq belə dedi:

"-Hüseynim, igid oğlum!.. Dayın Şapkada, atan Döməkdə, böyük qardaşların Çanaqqalada şəhid oldular. Bax, sonuncu övladım sənsən. Əgər minarədən azan səsi kəsiləcəksə, məscidlərin qəndili sönəcəksə, südüm sənə haram əlsun. Şəhid ol, amma kəndə qayıtma! Haydı, oğul, Allah yolunu açıq etsin!"

Hər dəfə bu parçanı oxuduqca, içimdə bir qürur, bir fəxarət doğur. Bizim əsgərlərimiz də Qarabağ uğrunda gözlərini qırpmadan ölümə atıldılar. Döyüşdə misli görünməyən cəsarət göstərdilər. Düşmənin atıb qaçdığı yaralı döyüşçüsünə, qocalarına arxa oldu Azərbaycan əsgəri. Şuşanı əliyalın alan oğullarımızın mənəvi gücü düşmənimizi məğlub etdi. Dünya bunu gördü: Sal qayaları ayaqyalın dırmanaraq, əliyalın toplu-tüfəngli düşmənin üstünə atılan Azərbaycan əsgərinin Vətən sevgisini.



Analarımız oğullarını döyüşə yola salanda: "Vətən sizlərə əmanət",-dedilər. Yeganə övladının müqəddəs bayrağımıza sarılmış tabutu qarşısında dik dayanaraq "Vətən sağ olsun",-deyən minlərlə anamızı gördük. Bu qələbə birliyimizin rəmzi oldu. Ordu-xalq-lider birliyi "dəmir yumruq" olub düşmənin başını əzdi.

Türk dünyasının İkinci Çanaqqalası oldu Qarabağımız. Bu döyüşdə əfsanəyə döndü oğullarımızın qəhrəmanlığı. Və bu əfsanələrdə əbədi yaşayacaq igid əsgər və zabitlərimiz!

Biz düşməndən qisasımızı döyüş meydanında şərəflə, ləyaqətlə aldıq. Şəhidlərimiz, yaralılarımız oldu. Lakin torpaqlarımız işğaldan azad edildi. Hər qarış torpağımız uğrunda döyüşdük, illərin intiqamını aldıq. Təsəllimiz Qələbəmiz oldu.

Dünyanın ən dilbər guşəsidi doğma Azərbaycanımız. Torpağının altı da, üstü də bitib-tükənməyən xəzinədir. Bu yerlərin adamları da safdır, təmizdir təbiəti kimi. Bəlkə elə buna görədir ki, torpağımıza sahib çıxmaq, milli-mənəvi dəyərlərimizi özününküləşdirmək istəyən düşmənimizə də qucaq açmışıq. Qoynumuzda ilan bəsləmişik. Bu ilanlar əjdahaya dönüb bizləri udmaq niyyətinə düşüb zaman-zaman. Lakin bu sadə, ürəyiaçıq, əliaçıq xalqın səbir kasası dolanda Vətən məhəbbəti hər şeyi üstələyib, əjdahanın başını elə əzib ki, qan-qan deyən xain yalnız quyruq bulayıb, aman diləyib.

Tarix zaman-zaman təkrarlanır. Ötən əsrin əvvəlində olduğu kimi, 80-ci illərdə də mənfur qonşularımız yenidən torpaqlarımızı işğal etmək sevdasına düşürlər. Əsrin əvvəlində onlar qırmızı bolşeviklərin əli ilə ölkəmizdə soyqırımı törətmişlər və torpaqlarımızın bir qismini mənimsəmişlər. Lakin Azərbaycan xalqının əzmini, mübariz döyüş ruhunu, babalarımızdan bizlərə əmanət qalan Vətən sevgisini, həsrətini boğa bilməmişlər.

1992-ci ildə başlanan birinci Qarabağ müharibəsi zamanı əliyalın, sinəsini düşmənə sipər edən oğullarımızın igidlikləri havadarlarına arxalanan düşmənin özünü də mat qoymuşdu. Lakin vahid ordusu olmayan, başıpozuq rəhbərlərin ölkəni idarə etməsi sonda torpaqlarımızın 30 faizinin işğalı ilə nəticələndi. Bəşər tarixinin ən böyük faciəsini - Xocalı faciəsini yaşadı xalqımız. Dünya lal-kar olmuşdu. Haqq səsimizi eşitmək, görmək istəmirdilər. Düz 30 ilə yaxın işğal altında olan doğma yerlərin xiffəti ilə, tapdanmış izzəti-nəfsimizin utancı ilə yaşadı bu xalq. Və bir gün...

Ali Baş Komandanımız İlham Əliyevin dediyi kimi, vaxtı, zamanı çatdı. Artıq Azərbaycan 30 il əvvəlki Azərbaycan deyildi. Qüdrətli, dünyanın ən islahatçı, inkişaf etmiş dövləti olan Azərbaycan hər sahədə, o cümlədən ordu quruculuğunda öz sözünü dedi. Azərbaycan Ordusu dünyanın 50 ən güclü ordusundan biri kimi tanındı. Azərbaycanın beynəlxalq nüfuzu günbəgün artdı. Haqq səsimizə səs verənlər tapıldı. Azğın havadarlarından ilhamlanan mənfur düşmənlərimizin yeni torpaq iddiaları ilə tez-tez törətdikləri təxribatlar ikinci Qarabağ müharibəsinin başlanmasına səbəb oldu. Ali Baş Komandamızdan əks-hücum əmrini alan Azərbaycan Ordusu tariximizin ən şərəfli səhifəsini yazdı. Cəmi 44 gün davam edən müharibə ermənilərin dünyaya meydan oxuyan boş xoyallarının sonu oldu. Azərbaycan Ordusu XXI əsrin qalib ordusu kimi dünya tarixinə düşdü. Ordu və xalq birliyi, ən başlıcası, mətin, iradəli bir liderin siyasəti xalqımızın 30 illik nisgilinə son qoydu. Torpaqlarımız işğaldan azad edildi. Düşmən kapitulyasiya aktına imza atmalı oldu.

Şərəfimizi, ləyaqətimizi, milli mənliyimizi ucaldan Ordumuzla fəxr edirik. Bu amal uğrunda Şəhidlik zirvəsinə ucalanların ruhları qarşısında baş əyirik.

44 günlük Vətən müharibəsi bizim maddi və mənəvi gücümüzü, iradəmizi, birliyimizi Dünyaya göstərdi. İgid oğullarımız tariximizin şanlı səhifələrini qanları ilə yazdılar. Onlar yaralanmış izzət-nəfsimizi, qürurumuzu qaytardılar. Biz müzəffər xalq olduğumuzu sübut etdik.




Bax, bu gün əsl hünər dastanlarının qələmə alındığı gündür. Milli Ordumuzun hünəri, bəlkə də dastanlara sığmaz. Çünki Vətən müharibəsinin hər bir döyüşçüsü bir qəhrəmandır. O qəhrəmanların sırasında doğma Qaxımızın da övladları var. Hər biri bir əfsanəyə dönüb hünəri, igidliyi ilə.

İstər birinci, istərsə də ikinci Qarabağ müharibəsində rayonumuzun oğul və qızları da döyüşüblər. Birinci Qarabağ müharibəsində və Vətən müharibəsinə qədərki dövrdə 146 nəfər şəhidimiz, 39 nəfər itkin düşənimiz olub.

Vətən müharibəsi adlandırdığımız, bizə Qələbə sevincini yaşadan ikinci Qarabağ müharibəsində isə Qaxın 29 igid oğlu şəhid olub. Onlarca yaralımız hospitallarda hələ də müalicə alır.

Birinci və ikinci Qarabağ müharibəsinin şəhidləri, qaziləri, əlilləri haqqında hələ deyiləcək çox sözümüz var. Şəninə hələ min dastan deyiləcək igid Vətən oğullarının!

Elə bu amalla həmkarımız, Qax rayonunda çıxan "Şəlalə" qəzetinin redaktoru Xavər Əfəndiyeva da "Qaxdan Qarabağa gedən yol" adlı kitabında qələmə alıb həmyerlilərinin qəhrəmanlığını, Vətən sevgisini. Kitab ön söz və üç əsas hissədən - "Nur üzlü şəhidlərimiz", "Vətən andı içənlər" və "Hünəri ilə tarix yazanlar"dan ibarətdir. Kitabda Vətən nüharibəsinin şəhidləri - qaxlı igidlərdən, qazilərdən söz açılıb.

Bu günlərdə Qax rayonunun Heydər Əliyev Mərkəzində kitabın təqdimatı keçirilib. Mərasimdə şəhid ailələri, qazilər və rayonun ictimaiyyət nümayəndələri iştirak edib.

Mərasimi giriş sözü ilə RİH başçısının müavini, İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri Vəfa Heydərova açıb. Şəhidlərin xatirəsi ehtiramla yad edilib.

Kitabın müəllifi Xavər Əfəndiyeva kitab haqqında məlumat verib, mərasimdə iştirak etdiklərinə görə minnətdarlığını bildirib.

Təqdimat mərasimində əməkdar jurnalist Vaqif Musayev, şəhid qardaşı, şair Nadir Ziyadlı, şəhid anası Bacıxanım Babayeva, şəhid atası Musa Musayev və başqaları çıxış edərək öz ürək sözlərini söyləyiblər.

Mərasimin sonunda şəhid ailələri və qazilərə kitablar təqdim edilib. Xatirə şəkilləri çəkilib.

**Nadir Ziyadlı**

Yeni təfəkkür.- 2022- ci il.- 22 iyul.- S. 3.